**Arif Ələkbər ƏLƏKBƏROV**
iqtisad elmləri doktoru, professor
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin
"Sənayenin iqtisadiyyatı" kafedrasının müdiri,

# AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN İNNOVASİYALAŞDIRILMASI YOLLARI

**Xülasə**

**Tədqiqatın məqsədi** – Azərbaycanda sənaye müəssisələrinin fəaliyyətinin innovasiyalaşdırılması problemlərinin araşdırılması və həlli yollarının müəyyənləşdirilməsidir. Müasir şəraitdə sənaye müəssisələrinin innovasiyalaşdırılmasını ləngidən problemlər açıqlanmışdır. İnnovasiyaların işlənilməs, mənimsənilməsi və tətbiqi ilə bağlı maliyyə resurslarının çatışmaması səbəbləri təhlil olunmuşdur. Yeni çağırışlar şəraitində Azərbaycanda sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasında innovasiyaların potensialı üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın metodu kimi** – bir sıra metodlardan – elmi abstraksiya, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla yanaşı, sənaye müəssisələrinin innovasiyalaşdırılması problemlərinə həsr olunmuş elmi əsərlərə və analitik materiallara istinadlar edilmişdir.

**Tədqiqatın nəticələri** – qismində məqalədə yer almış yekun müddəalardan Azərbaycanda sənaye müəssisələrinin fəaliyyətinin innovasiyalaşdırılması mexanizmlərinin hazırlanmasında və sistemli tədbirlərin görülməsində istifadə edilməsi nəzərdə tutulur.

**Açar sözləri:** Azərbaycan, sənaye sektoru, sənaye müəssisələri, innovasiyalar, innovasiyaların tətbiqi problemləri, innovasiyaların tətbiqi perspektivləri.

**UOT:** 338
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/LHFZ8981

## Giriş

Müasir dövrdə innovasiya iqtisadi i nkişafın aparıcı qüvvəsinə çevrilmiş, məhsuldarlığın artmasına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi artıma səbəb olmuşdur. İnnovasiyanın əsas məqsədi istehlakçılar və bu yenilikləri reallaşdıran əsas maraqlı tərəflər üçün əlavə dəyər yaratmaq, habelə, yüksək texnologiyalar və yeni məhsullar yaratmaq, inkişaf etdirmək və tətbiq etməkdir. İnnovasiya prosesi sadəcə bir ideyanın yaranması deyil, həmin ideyanın reallaşdırılması və bazara təqdim edilməsinə qədərki mərhələləri əhatə edir. İnnovasiya prosesləri sadəcə texnoloji inkişaf deyil, iqtisadi dayanıqlılığın, sosial rifahın və qlobal rəqabətliliyin əsas dayağıdır. Bu proseslərə ciddi yanaşmaq və onları təşkilatlanmış şəkildə idarə etmək müəssisələr və ölkələr üçün strateji önəm daşıyır. İnnovasiyaların istifadəsi sənaye müəssisələrinin genişlənməsini sürətləndirə, yeni bazarların formalaşmasına şərait yarada və məşğulluğun artmasına təkan verə bildiyindən, həmin müəssisələrdə innovativ fəaliyyətin təşviqi zəruri hesab olunur [1, s. 423]

İnnovasiya prosesləri müxtəlif elm sahələrində formalaşaraq istehsalat mərhələsində başa çatır və bu zaman istehsal daxilində keyfiyyətcə yeni, mütərəqqi dəyişikliklər baş verir. İnnovasiyalar yalnız texnika və texnologiyaya deyil, habelə istehsalın və idarəetmənin təşkili formalarına aiddir. Bu sahələr arasında sıx qarşılıqlı əlaqələr mövcuddur və innovasiyalar istehsal güclərinin inkişafında və istehsal proseslərinin səmərəliliyinin yüksəldilməsində önəmli rol oynayan keyfiyyət mərhələləridir. ETT-nin nailiyyətlərini istehsal və sosial sahələrə tətbiq etmək məqsədilə innovasiya fəaliyyəti investisiya fəaliyyətinin bir növü kimi də reallaşdırıla bilər [2, s.5].

İnnovasiya prosesləri istehsalın və sosial əlaqələrin strukturunu yeniləmək məqsədilə fay-

dalı iqtisadi vasitələrdən biri kimi nəzərdən keçirilə bilir. İnnovasiyaların tətbiqi ilə istehsal və xidmət sahələrində önəmli dəyişikliklər yaratmaq mümkündür. İnnovasiyalar müəssisələrin fəaliyyətini yeniləyir, onların rəqabət qabiliyyətini artırır, sosial və iqtisadi funksiyaların daha effektiv şəkildə reallaşdırılmasını təmin edir. Habelə, müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yaxşılaşmasına, gəlirlilik və rentabellik göstəricilərinin artmasına gətirib çıxarır. Beləliklə, innovasiyalar istehsal proseslərinin effektivliyini artırmaqda və təsərrüfat fəaliyyətində mənfəət əldə etməkdə önəmli rol oynayır. Bu proseslər istehsalın keyfiyyətini yüksəldir və istehsal olunan məhsulların digər analoqları ilə müqayisədə daha üstün xüsusiyyətlərə sahib olmasına şərait yaradır [3, s.29].

**Sənaye müəssisələrinin fəaliyyətinin innovasiyalaşdırılması problemləri**

İnnovasiyalar təkcə məhsul və xidmətlərin təkmilləşdirilməsinə deyil, habelə istehsal proseslərinin səmərəliliyinin artırılmasına, resursların daha optimal istifadəsinə və rəqabətqabiliyyətliliyin yüksəldilməsinə xidmət edir. Bu baxımdan, **Azərbaycanda sənaye müəssisələrinin innovasiyalaşdırılması** milli iqtisadiyyatın modernləşdirilməsi üçün strateji önəm daşıyır. Azərbaycanda sənaye müəssisələrinin fəaliyyətinin innovasiyalaşdırılması iqtisadi inkişafın sürətləndirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalının artırılması və beynəlxalq bazarlarda mövqeyin gücləndirilməsi baxımından olduqca vacibdir [4, s. 321-326]. Bu, sənaye müəssisələrinin bazarda digərlərindən üstünlüklərini təmin edən inkişaf prosesidir, böyük həcmdə investisiyalar, tətbiqindən müsbət nəticələr əldə etmək üçün innovativ fəaliyyətlərin idarə edilməsinə kompleks yanaşma, innovativ strategiyaların əsas növlərindən və müəssisənin sənaye səviyyəsindən rasional istifadəsini tələb edir.

Azərbaycan iqtisadiyyatının əsas sektorlarından biri olan sənaye sahəsi, xüsusilə neft və qaz sənayesi üzrə irəliləyişlər əldə etsə də, qeyri-neft sənayesində innovativ texnologiyaların tətbiqi istənilən səviyyədə deyil. Ənənəvi istehsal üsullarına əsaslanan bir çox müəssisələrdə məhsuldarlıq aşağı səviyyədə qalır və bu, dünya bazarında rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Bu sahədə ə**sas problemlər** ənənəvi texnologiyaların üstünlük təşkil etməsi, elmi-tədqiqat işlərinə kifayət qədər vəsait ayrılmaması, kadr potensialının zəifliyi, innovasiya infrastrukturunun, rəqəmsallaşma proseslərinin kifayət qədər inkişaf etməməsi kimi problemlərdir [5, s. 705]. Məlumdur ki, innovativ fəaliyyətinin əsas subyektləri, ilk öncə, innovasiyaları öz istehsalına təşviq etməyə çalışan sənaye müəssisələridir. Sənaye müəssisələrinin innovasiyalaşdırılmasının inkişaf tendensiyalarının öyrənilməsi nəinki innovativ potensialın səmərəli şəkildə reallaşdırılmasına mane olan cəmiyyətin reproduktiv inkişafının qanunauyğunluqlarını, habelə, obyektiv və subyektiv xarakter daşıyan bir sıra problemləri, onların həlli yollarını müəyyənləşdirməyə imkan verir. İnnovativ inkişafla bağlı qərarların qəbulu qiymətləndirmə sisteminin və fəaliyyət meyarlarının istifadəsini tələb edir. Hazırda mövcud yanaşmalar fəaliyyətin reallaşdırılması üçün tələb olunan investisiyaların qiymətləndirilməsinə əsaslanır.

Sənaye müəssisələrinin idarə olunması elə təşkil edilməlidir ki, innovasiyaların tətbiqi zamanı riskli və təhlükəli şərait deyil, əksinə, əlverişli və təşviqedici bir mühit formalaşsın. Dəyişikliklərə qarşı göstərilən müqavimət isə sonradan ortaya çıxacaq gözlənilməz çətinliklərə yol aça bilər. İşçilər başa düşməlidirlər ki, innovasiya müəssisənin inkişafı və rifahı üçün əsas rol oynayır. Yeniliklər həmçinin işçilərin daim fəal qalmasını təmin edir və onların gələcək sosial təminatına töhfə verir. Bu fikirlərə əsaslanaraq demək olar ki, innovativ fəaliyyətin davamlı şəkildə reallaşdırılması sənaye müəssisələrinin uğur qazanmasına və təkmilləşməsinə səbəb olur [6, s. 110]. Sənaye müəssisələrin innovasiyalaşdırılması proseslərini sürətləndirmək üçün bu sahədə stimullaşdırma mexanizmlərinin forma və metodlarının müasirləşdirilməsi vacibdir. Sənaye müəssisələrinin innovasiyalaşdırılması proseslərinin stimullaşdırılmasının aktuallığı, ilk öncə, bazar iqtisadiyyatı şəraitində məhsuldarlığın sürətlə artması və əhalinin məhsul və xidmətlərə olan tələbatının davamlı yüksəlməsi ilə izah olunur. Habelə, istehsal texnologiyaları daim yenilənir və təkmilləşdirilir ki, bu da bazar şəraitinin tez-tez dəyişməsinə səbəb olur. Bu səbəbdən iqtisadçılar innovasiya fəaliyyətinin nəticələrini təhlil etməli, bazar konyunkturasını nəzərə almalı və innovasiyaların stimullaşdırılması mexanizmlərini dərindən öyrənməlidirlər [7, s. 168].

Sənaye müəssisələrində innovativ fəaliyyətin stimullaşdırılmasının ən təsirli yolu, əməkdaşların,

kollektivlərin və bölmələrin maddi və qeyri-maddi formada təşviq olunmasıdır. Bu cür stimullaşdırma tədbirləri xüsusilə vacibdir, çünki əməkdaşlar innovasiyalara maraq göstərmədikdə və onların motivasiyası aşağı olduqda, əlverişli şərait və kifayət qədər resursların mövcudluğuna baxmayaraq, yüksək nəticələrə nail olmaq mümkün olmur. Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması üsullarına gəldikdə isə, aparıcı yerləri iqtisadi, sosial-psixoloji və inzibati üsullar tutur. Bu metodlara müəssisənin iqtisadi, texnoloji, idarəetmə, təşkilati və informasiya sahələrində təkmilləşdirilməsini təmin edən kompleks tədbirlər daxil olmalıdır. Yalnız maliyyə sabitliyi olan, iqtisadi baxımdan güclü müəssisələr yeni innovasiyalar yaratmaq potensialına malikdirlər. Bu səbəbdən, sənaye müəssisələrinin innovasiya qabiliyyətinin artırılması birbaşa onların iqtisadi fəaliyyətlərinin səmərəliliyi ilə əlaqədardır. Habelə, innovativ fəaliyyətin planlaşdırılması və proqnozlaşdırılması üçün mexanizmlərin hazırlanması, eləcə də müəssisələrin uzunmüddətli inkişafını təmin edəcək innovasiya strategiyalarının işlənməsi vacib məsələlərdəndir. Sənayedə müəssisələrində innovasiya fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş əsas tədbirlər sırasında vergi güzəştləri, innovasiya prioritetlərinə uyğunlaşdırılmış amortizasiya siyasəti, eləcə də yeni məhsul növlərinin istehsalını mənimsəyən müəssisələrə birbaşa büdcə dəstəyi önəmli yer tutur. İnnovasiya yönümlü fəaliyyətə vergi dəstəyinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, bu dəstək maliyyə vəsaiti şəklində əvvəlcədən deyil, artıq reallaşdırılmış proses və ya məhsul innovasiyasına yönəldilir [8, s.21].

İnnovativ fəaliyyətin aktivləşdirilməsi müəssisələrin rəqabət qabiliyyətinə nail olmaq üçün ən vacib şərtdir. Lakin müasir iqtisadi şəraitdə bu prosesi stimullaşdırmaq və dəstəkləmək üçün təsirli tədbirlər işləyib hazırlamadan reallaşdırmaq çətin, bəzən isə qeyri-mümkündür. Sənaye müəssisələrinin innovativ fəaliyyətinin stimullaşdırılması formalarının, üsullarının və vasitələrinin seçimi onların inkişaf səviyyəsi, innovasiyaların tətbiqinə hazırlığı və ölkədə mövcud iqtisadi vəziyyətlə müəyyənləşdirilir. Sənaye müəssisələrinin innovasiyalaşdırılması üçün müxtəlif maliyyə mənbələrinin cəlb olunması vacibdir. Hazırda sənaye sahələrinin innovasiya yönümlü inkişafının maliyyə bazasının formalaşdırılması üçün bir neçə əsas mənbə mövcuddur ki, bu mənbələrə, ilk öncə, həmin müəssisələrin daxili vəsaitləri – yəni mənfəətləri və amortizasiya ayırmaları, dövlət büdcəsindən ayrılan vəsaitlər, o cümlədən, ölkənin təsisçi qurumları və bələdiyyələrin vəsaitləri, eləcə də bank kreditləri və digər borc vəsaitləri daxildir [9, s. 13-14]. Qeyd edək ki, Azərbaycan sənayesində müxtəlif fəaliyyət növlər üzrə texdnoloji innovasiyalara sərf olunan xərclərin həcmi qeyri-bərabər artmışdır. Həmin xərclərin həcmi tədqiq etdiyimiz dövrlər ərzində ən çox 48037,1 min AZN olmuşdur. 2023-cü ildə onların həcmi 11666,7 min AZN olub ki, bunun 716,8 min AZN-i və ya 6,1%-i müəssisələrin özlərinin vəsaiti hesabına olmuşdur.

**Azərbaycanda sənaye müəssisələrinin innovasiyalaşdırılması perspektivləri və istiqamətləri**

Sənaye müəssisələrində innovasiya proseslərinin və innovasiya fəaliyyətlərinin genişləndirilməsinə təşkilati dəstək göstərilməlidir ki, bu, aşağıdakı sahələri əhatə etməlidir: rasional inkişaf edən innovasiya infrastrukturunun yaradılması; müəssisənin innovativ dəyişikliklərə həssaslığının öyrənilməsi; təşkilati komponentlər kimi innovasiya, innovasiya layihəsi, innovasiya potensialının formalaşması. Ölkəmizdə sənaye sahələri üzrə müasir innovasiya fəaliyyətinin təşkilində bir neçə sənaye parklarının yaradılması önəmli rol oynayır. Odur ki, müasir innovativ sənaye parklarının yaradılması proseslərinin sürətləndirilməsi və bu sahədə dövlət dəstəyinin artırılması zəruridir [10, s.74]. Sənaye müəssisələrinin innovasiyalaşdırılmasını təmin edən nəzəri və praktiki metodlar hazırlanarkən başqa bir problem yaranır: innovativ fəaliyyət göstərən müəssisənin sistem diaqnostikası. Müəssisənin sistem diaqnostikası müəyyən xüsusiyyətlərin öyrənilməsinə yönəldilməlidir ki, bunlara aiddir: müəssisənin innovasiyaların mənimsənilməsi imkanlarını təsdiq edən maliyyə monitorinqi; müəssisənin strukturunda mümkün dəyişikliklər; müəyyən bir müəssisə üçün innovasiyaların mənimsənilməsinin nəticələrinin proqnozlaşdırılması; müəssisənin inkişaf mərhələlərinin tədqiqi və mənimsəməyə hazır olduğu innovasiya növlərinin müəyyənləşdirilməsi. Müəssisənin sistem diaqnostikası metodlarının inkişafı innovativ potensialdan istifadə üçün praktiki tövsiyələrin hazırlanmasında zəruri hissəyə çevrilir [11, s. 176]. Aydındır ki, innovativ inkişaf ikili xarakter

daşıyır: 1) innovativ potensialın toplanması və istifadəsinin davamlı tsiklik prosesi və 2) birbaşa reallaşdırılan innovasiyaların diskret xarakteri. Bu proseslərin üst-üstə düşməsi nəticəsində innovativ potensialın toplanması və əldə edilən mənfəət arasında ziddiyyətlər yarana bilər. Bu problemin həlli kimi effektiv qarşılıqlı əlaqənin tapılması həmin prosesləri təkmilləşdirməyə imkan verəcək. Tədqiqatlar göstərir ki, sənaye müəssisələrinin innovativ fəallığını artırmaq məqsədilə innovasiya tsiklinin bütün komponentləri və həlqələri arasında tarazlığın formalaşdırılması zəruridir [12]. Bu istiqamətlərdən biri istehsal prosesində innovasiyanı bilavasitə reallaşdıran və ya bu prosesdə iştirak edən subyektlərin qarşılıqlı əlaqəsi mexanizmlərinin yaradılmasıdır. Bu, istehsal müəssisələrində innovativ fəaliyyətin səmərəli formalaşdırılmasına və onların inkişafı üçün şəraitin yaradılmasına tələbat yaradır. İnnovativ fəaliyyətin formalaşması və inkişafı sahəsində xarici təcrübənin sistemləşdirilməsi onun bəzi elementlərinin yaradılmasının əsas cəhətlərini müəyyənləşdirməyə və onlardan xalq təsərrüfatında istifadə imkanlarını göstərməyə imkan verir [13, s. 30].

Ümumiyyətlə, sənaye müəssisələrinin innovativ fəallığını artırmaq məqsədilə bir sıra perspektivli istiqamətlər mövcuddur ki, bunlara məsrəflərin idarə olunmasının daha səmərəli təşkili və istehsal xərclərinin minimuma endirilməsi, istehsal proseslərinin beynəlxalq sertifikatlaşdırma və keyfiyyətin idarəolunması çərçivəsində standartlaşdırılması, yeni ideya və təşəbbüslərin təşviqi, istehsalatın təşkili səviyyəsinin yüksəldilməsinə imkan verən müasir avadanlıqlardan və qabaqcıl proqram təminatından istifadə, son texnoloji yeniliklərin istehsal proseslərinə tətbiqi və bu proseslərin icra müddətinin qısaldılması aiddir. Habelə, innovativ fəaliyyətin maliyyə baxımından təmin edilməsi üçün müasir metod və yanaşmalardan istifadə edilməsi, istehsal prosesinə innovativ məhsulların daxil edilməsi və onların ümumi istehsal həcmi içərisində xüsusi çəkisinin artırılması, həmçinin biznes tərəfdaşları ilə effektiv əməkdaşlığın qurulması da sənaye müəssisələrinin innovativ fəallığının artırılmasında əsas istiqamətlər kimi qiymətləndirilə bilər [14, s. 68].

Beləliklə, sənaye müəssisələrinin innovativ fəallığının artırılmasına töhfə verəcək istiqamətləri cədvəl 1-dəki kimi formalaşdıra bilərik.

**Cədvəl 1**

**Sənaye müəssisələrinin innovativ fəallığının artırılmasına yönəlmiş istiqamətlər**

| İnnovasiya fəallığının artırılması istiqamətləri | Müəssisələrin innovativ fəallığının artırılması istiqamətlərinin tərkibi |
|---|---|
| Müəssisənin struktur bölmələrinin modernləşdirilməsi, texniki cəhətdən yenidən qurulması | Ayrı-ayrı istehsalat müəssisələrinin, sexlərin və sahələrin texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi; köhnəlmiş avadanlıqların yeniləri ilə əvəzlənməsi, köməkçi sahələrin mexanikləşdirilməsi; avadanlıqların təmir müddətinin azaldılması; məqsədyönlü və sistemli yenilənmə və texniki təkmilləşdirmə; maşın və avadanlıqların iş vaxtının artırılması; enerji istehlakının azaldılması; fasilələrin azaldılması; istismara verilən əsas fondların layihə məhsuldarlığının yüksəldilməsi istiqamətində istehsalın idarə edilməsinin təkmilləşdirilməsi üzrə təşkilati-texniki tədbirlər kompleksinin reallaşdırılması. |
| Müəssisənin yenidən qurulması və təşkili | İstehsalın strukturunda və idarəetmə prosesinin təşkilində mütəmadi dəyişikliklərin edilməsi; miqyas qənaətindən istifadə; səlahiyyətlərin və funksiyaların təkrarlanmasının aradan qaldırılması, istehsal həcminin artırılması zamanı əməliyyat xərclərinin azaldılması, innovativ analitik məlumatların emalı sistemlərinin tətbiqi; operativ idarəetmə qərarlarının qəbulu məqsədilə ekspert sistemlərinin avtomatlaşdırılması və s. ilə xarakterizə edilən ən radikal tədbirlər sisteminin reallaşdırılması. |
| Elmi inkişafın aktivləşdirilməsi | Əqli mülkiyyətin idarə edilməsi; ixtira və səmərələşdirmənin inkişafı; elmi təşkilatlar və konsaltinq firmaları ilə əlaqələrin qurulması; ümumi innovasiya xərclərində tədqiqat və inkişaf xərclərinin artırılması. |

| | |
|---|---|
| Müəssisənin ən son texnologiyalarla təmin edilməsi | İnnovativ məhsullar və avadanlıqlar üçün istifadə edilən lisenziyaların alınması; istehsalda ən müasir texnologiyaların, az tullantılı və resursa qənaət edən texnoloji proseslərin tətbiqi; yeni texnologiyanın yaradılması məqsədilə xərclərin və vaxtın azaldılması; istehsalın tərəqqisinə nail olmaq məqsədilə texnologiya transferinin reallaşdırılması. |
| Kadrların innovativ dəyişikliklərə uyğunlaşması | İnnovativ layihələrə kadr dəstəyi, innovativ ideyaların sayının artırılması; kadrların peşə hazırlığının, ixtisasının artırılmasının və yenidən hazırlanmasının təşkili; işçilər arasında əlverişli sosial mühitin yaradılması; işçilər arasında innovativ dəyişikliklərə qarşı müqavimətin aradan qaldırılması; kadrların innovasiya proseslərinin layihələndirilməsinə və genişləndirilməsinə cəlb edilməsi; innovativ ideyalar, xaricdə təcrübə üçün əlavə bonusların ödənilməsi. |
| Maliyyə-investisiya fəaliyyətinin təkmilləşdirilməsi | Müəssisənin kredit və investisiya siyasətinin sabitləşdirilməsi; müəssisənin maliyyə vəziyyətinin ətraf mühitinin risk və təhdidlərinə həssaslığının azaldılmasına yönəlmiş tədbirlər kompleksinin işlənməsi; gələcəkdə innovativ fəaliyyətin inkişafının mümkün yollarının tədqiqi və işlənməsi istiqamətində maliyyə proqnozlarının formalaşdırılması. |
| Müəssisənin effektiv marketinq siyasəti | Müəssisənin fəaliyyətində və inkişafında "zəif nöqtələrin" axtarışı, habelə mənfi amillərə vaxtında reaksiya vermək məqsədilə tədbirlər sisteminin formalaşdırılması; bazar mühitinin davamlı monitorinqi və onun komponentlərinin diaqnostikası; yeni məhsul növlərinin təşviqi və yayılması prosesini təkmilləşdirməklə yeni istehlakçı qruplarının cəlb edilməsi; müəssisənin öz maraqlarını istehlakçıların maraqları ilə uzlaşdıran və rəqiblərin qiymət siyasətləri ilə rəqabətədavamlı olan effektiv qiymət siyasətinin reallaşdırılması; bazar ehtiyaclarını öyrənərkən marketinqin planlaşdırılması və proqnozlaşdırma metod və üsullarından istifadə. |

**Qeyd:** müəllif tərəfindən hazırlanmışdır.

İnnovativ fəaliyyət müəssisələr üçün məqsədyönlü şəkildə təşkil olunmalı, çünki bu, yeni məhsulun yaradılması və ya mövcud məhsulun təkmilləşdirilməsi ilə bağlıdır ki, nəticədə müəssisə rəqabətli mühitin yaratdığı risklərə qarşı dayanıqlı ola bilsin. Müəssisələrin innovasiyalı idarəetmə prosesində innovasiya bazarında meydana çıxan risklər nəzərə alınmalı və müəssisənin innovasiya strategiyası vaxtlı-vaxtında yenilənməlidir [15, s.344].

Sənaye müəssisələrində innovativ fəaliyyətinin uğurla reallaşdırılması müxtəlif strategiyaların hazırlanmasını, operativ və strateji planlaşdırma alətlərinin birgə və kompleks şəkildə tətbiqini tələb edir. Strateji planlaşdırma xarici mühitin qeyri-müəyyənliyindən irəli gələn təsirlərin azaldılmasına və müəssisənin qarşılaşa biləcəyi risklərin minimuma endirilməsinə imkan yaradır. Müəssisənin innovativ inkişaf strategiyasının reallaşdırılması üçün bu sahədə tətbiq olunan praktik mexanizmlərin əsaslandırılması və dərindən işlənməsi zəruridir. Bununla yanaşı, innovativ fəaliyyətin yüksək intensivliyini saxlamaq məqsədilə effektiv tədbirlərin görülməsi və daha məhsuldar vasitələrin tətbiq edilməsi vacibdir. Yeni innovasiyaların hazırlanması, mənimsənilməsi və tətbiqi müəssisənin innovasiya fəaliyyətinin əsas göstəricilərindən biri hesab olunur. Bu proses, nəticə etibarilə, sənaye müəssisələrinin rəqabət üstünlüyünün artırılmasına və yüksək texnologiyalı, elmi tutumlu məhsulların geniş istehsalına ciddi töhfə verir [16, s. 84-85].

**Nəticə**

Beləliklə, Azərbaycanda sənaye müəssisələrinin fəaliyyətinin innovasiyalaşdırılması yollarını aşağıdakı kimi təklif edə bilərik:

1. Dövlət dəstəyinin gücləndirilməsi və stimullaşdırıcı mexanizmlərinin tətbiqi. Bu, vergi güzəştləri, dotasiyalar, innovasiya fondları və digər maliyyə alətləri ilə innovasiyaya investisiyaların təşviqini, dövlət proqramları çərçivəsində texnoparkların, sənaye parklarının inkişaf etdirilməsini,

ixrac yönümlü məhsullar üçün xüsusi innovasiya təşviqlərini nəzərdə tutur. Azərbaycanda innovasiya fəaliyyətinin təşviqi üçün bir sıra dövlət proqramları və hüquqi mexanizmlər mövcud olmasına baxmayaraq, bu təşəbbüslərin effektivliyinin artırılması üçün daha genişmiqyaslı təşviq mexanizmlərinə, o cümlədən innovativ müəssisələrə daha geniş vergi və gömrük güzəştlərinin tətbiqinə, startap və texnoparkların genişləndirilməsinə, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsinə ehtiyac vardır.

2. Elmi tədqiqat işlərinin sürətləndirilməsi və bu sahədə sənaye əməkdaşlığının gücləndirilməsi. Bu, elmi-tədqiqat institutları ilə sənaye müəssisələri arasında əməkdaşlığın qurulmasını, startap layihələrinin və innovativ təşəbbüslərin sənaye müəssisələrində tətbiqini, universitetlərdə hazırlanan texnologiyaların kommersiyalaşdırılması və sənayedə tətbiqini nəzərdə tutur. İnnovasiya istehsalatla elmi biliklərin və texnologiyaların inteqrasiyası nəticəsində yaranır. Sənaye müəssisələri ali təhsil və tədqiqat institutları ilə əməkdaşlığı gücləndirməli, startaplarla iş birliyi qurmalı, tədqiqatlara investisiya yatırmalı və vergi güzəştlərindən faydalanmalıdır.

3. Rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsi və sənaye 4.0 texnologiyalarının tətbiqi. Bu istiqamət müasir sənaye müəssisələrinin innovasiyalaşdırılması üçün əsas istiqamətlərdən biridir. Bu yanaşma müəssisələrin rəqabət qabiliyyətinin artırılması, əməliyyat səmərəliliyinin yüksəldilməsi və məhsul keyfiyyətinin yaxşılaşdırılması baxımından önəmli rol oynayır.

4. Yaşıl və dayanıqlı innovasiyaların tətbiqi. Bu, ekoloji təmiz texnologiyaların, yaşıl sertifikatlaşdırma və ISO standartlarının tətbiqini, yaşıl enerji mənbələrinin sənayedə istifadəsini nəzərdə tutur. Yaşıl və dayanıqlı innovasiyaların tətbiqi müasir dövrdə sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və ətraf mühitə təsirini minimuma endirmək üçün vacib strategiyalardan biridir. Bu yanaşma, müəssisələrin yalnız iqtisadi baxımdan deyil, habelə ekoloji və sosial cəhətdən davamlı inkişafına töhfə verir. Uzunmüddətli strateji yanaşmalar və inteqrasiya olunmuş innovasiya siyasətləri ilə sənaye sahəsində yaşıl transformasiyaya nail olmaq mümkündür. Yaşıl və dayanıqlı innovasiyalar sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırır, xərcləri azaldır və sosial məsuliyyətli fəaliyyət modelini dəstəkləyir. Dövlət, özəl sektor və elmi-tədqiqat institutları arasında koordinasiyalı əməkdaşlıq bu sahədə uğurun əsas açarıdır.

5. Beynəlxalq təcrübənin və texnologiyanın mənimsənilməsi. Xarici investorlardan və beynəlxalq təşkilatlardan texnoloji transferləri, beynəlxalq əməkdaşlıq yolu ilə yeni məhsul və texnologiyaların lokal istehsala inteqrasiyanı, beynəlxalq sərgi və texnoloji forumlarda iştirakı əhatə edir. Dünyada bir sıra uğurlu innovasiya modellərinin, məsələn, Almaniyanın “Sənaye 4.0”, Cənubi Koreyanın texnopark modeli və Skandinaviya ölkələrinin yaşıl texnologiyalara keçid modellərinin Azərbaycanda tətbiqi böyük fayda verə bilər. Bu modellər əsasında texnoloji klasterlərin yaradılması, innovasiya yönümlü təhsil proqramlarının genişləndirilməsi, sürətli texnologiya transferi reallaşdırıla bilər.

Sənaye müəssisələrinin innovasiyalaşdırılması Azərbaycan iqtisadiyyatının davamlı inkişafının əsas şərtlərindən biridir. Rəqabət qabiliyyətli sənaye sektoru yalnız yeni texnologiyalar və innovasiyaların tətbiqi nəticəsində formalaşa bilər. Bu baxımdan, kompleks tədbirlərin həyata keçirilməsi və bütün maraqlı tərəflərin – dövlət, biznes və elmi qurumların birgə fəaliyyəti böyük önəm daşıyır. Nəticə olaraq, Azərbaycanda sənaye müəssisələrinin innovasiyalaşdırılması üçün hüquqi-normativ baza innovasiya yönümlü təkmilləşdirilməli, dövlət və özəl sektor əməkdaşlığı genişləndirilməli, müəssisələrdə texnoloji yeniliklərin tətbiqi üçün investisiya cəlbediciliyi stimullaşdırılmalı, sənaye və təhsil sektoru arasında körpü rolunu oynayan platformalar yaradılmalı, rəqəmsal transformasiya prosesləri sürətləndirilməli, startapların sənaye müəssisələri ilə inteqrasiyasına dəstək göstərilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aliyev, Sh. Priorities for strengthening Azerbaijan's economic security and sovereignty in the context of sustainable development //Sci. Educ. Innov. Context Mod. Probl. Issue 2, Vol. 8, 2025, IMCRA, pp. 420-446 . DOI: 10.56334/sei/8.2.29 - https://imcra-az.org/uploads/public_files/2025-04/aliyev-shafa.pdf.

2. İbrahimova S. Neft və qaz yataqları üzrə hasilatın sabitləşməsi və artırılması istiqamətində

həyata keçirilən innovasiya tədbirləri. İpək yolu, 4/12, s. 5-12.

3. Mahmudova L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit № 4, Cild 26, 2019, s.24-36.

4. Aliyev, Sh.T. (2014). Economics of Azerbaijan: upgrading and implementation of effective instruments. Life Science Journal, 11, 321-326.

5. Алиев, Ш.Т., Лачинов Э.Т. Проблемы и перспективы организации перерабатывающих отраслей нефти и газа в Азербайджане // Российское предпринимательство. 2017. Том 18. № 5. с. 703-710.

6. Səmədova T. Rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiyanın rolu. İpək yolu, №3, 2017, s.106-113.

7. Ələkbərov Z.A. Sənaye müəssisələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizmlərinin nəzəri-metodoloji aspektləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (iyul-avqust), s.167-176.

8. Rəsulov K.Ə. Sənayedə innovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015, 30 s.

9. Ələkbərov Z.A. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemləri və həlli istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2025, 28 s.

10. Əliyeva A.Ə. Sənaye sahəsində müasir innovasiya fəaliyyətinin təşkili məsələləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (noyabr-dekabr), s.69-75.

11. Козлов, А. А. Современные проблемы инновационного развития промышленных предприятий / А. А. Козлов // Формирование и реализация стратегии устойчивого экономического развития Российской Федерации: Сборник статей XII Международной научно-практической конференции, Пенза, 09–10 декабря 2022. – С. 170-176.

12. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.

13. Raupova N.D. Ways of effective development of innovative activities at production enterprises of the republic of Uzbekistan. EPRA International Journal of Research and Development, Volume: 5, Issue: 10, October 2020, pp. 30-31.

14. Левицька І.В. Інноваційна діяльність промислових підприємств: сучасний стан та напрями підвищення. Economics and Business Management, 2020, Vol. 11, No.2, pp.60-71.

13. Алиев, Ш.Т. Моделирование инноватизации национальной экономики в современных условиях // Научное обозрение, 2014 , № 06, С. 342-346.

15. Рахмани Ф.П. Механизмы применения инновационной стратегии в развитии промышленных предприятий Азербайджана. Audit, 2020, 4 (30), s.81-94.

**Arif Alakbar ALAKBAROV**
Doctor of Economic Sciences, Professor
Head of the Department of "Industrial Economics" of the
Azerbaijan State Oil and Industry University,

## WAYS TO INNOVATE THE ACTIVITIES OF INDUSTRIAL ENTERPRISES IN AZERBAIJAN

**Summary**

**The purpose of the study** is to investigate the problems of innovation in the activities of industrial enterprises in Azerbaijan and identify ways to solve them. The problems that slow down the innovation of industrial enterprises in modern conditions are explained. The reasons for the lack of financial resources for the development, adoption and application of innovations are analyzed. Recommendations on the potential of innovations in increasing the efficiency of the activities of industrial enterprises in Azerbaijan in the conditions of new challenges are developed and proposals are put forward.

**As a method of the study**, a number of methods were used - scientific abstraction, analysis, synthesis, comparison and generalization methods. Along with these, references are made to scientific works and analytical materials dedicated to the problems of innovation of industrial enterprises.

**The results of the study** - as a result, it is intended to use the final provisions contained in the article in the development of mechanisms for the innovation of the activities of industrial enterprises in Azerbaijan and in taking systematic measures.

**Keywords:** Azerbaijan, industrial sector, industrial enterprises, innovations, problems of applying innovations, prospects for applying innovations.

**Ариф Алекбер АЛЕКБЕРОВ**
доктор экономических наук, профессор
Заведующий кафедрой «Экономика промышленности»
Азербайджанского Государственного Университета Нефти и Промышленности,

## ПУТИ ИННОВАЦИОННОГО ВНЕДРЕНИЯ ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ АЗЕРБАЙДЖАНА

### Резюме

**Целью исследования** является исследование проблем инновационной деятельности промышленных предприятий Азербайджана и выявление путей их решения. В статье изложены проблемы, замедляющие инновационную деятельность промышленных предприятий в современных условиях. Проанализированы причины нехватки финансовых ресурсов для разработки, внедрения и применения инноваций. Разработаны рекомендации и предложения относительно потенциала инноваций в повышении эффективности деятельности промышленных предприятий Азербайджана в условиях новых вызовов.

**В качестве метода исследования** использовался ряд методов: научная абстракция, анализ, синтез, сравнение и обобщение. Даны ссылки на научные труды и аналитические материалы, посвященные проблемам инновационной деятельности промышленных предприятий.

**Результаты исследования:** рассматривается использование основных положений, содержащихся в статье, при разработке механизмов инновационной деятельности промышленных предприятий Азербайджана и принятии системных мер.

**Ключевые слова:** Азербайджан, промышленный сектор, промышленные предприятия, инновации, проблемы внедрения инноваций, перспективы внедрения инноваций.